## 2023-cü ildə respublikamızda pərakəndə ticarət, iaşə və pullu xidmət sahələrinin inkişafına dair
## ARAYIŞ

2023-cü ildə ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində 12.332,8 milyon manatlıq əlavə dəyər yaradılmış və onun ÜDM-də xüsusi çəkisi 10,0 faiz təşkil etmişdir.

Hesabat dövründə əsas kapitala yönəldilmiş bütün vəsaitin 2,1 faizi (428,4 milyon manat) ticarət və nəqliyyat vasitələrinin təmiri sahələrinə sərf edilmişdir. 2023-cü il dekabrın 1-i vəziyyətinə muzdla işləyənlərin sayı iqtisadiyyatın neft-qaz sektorunda 31,4 min nəfər, qeyri neft-qaz sektorunda isə 1.701,2 min nəfər olmuş və onların 18,5 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahələrində cəmlənmişdir.

2023-cü ildə ölkənin pərakəndə ticarət şəbəkəsindən əhaliyə satılan malların həcmi 58.997,7 milyon manat təşkil etmiş və 2022-ci illə müqayisədə real ifadədə 3,7 faiz artmışdır.

İstehlak mallarının 25,9 faizi ticarət müəssisələrində, 52,2 faizi fərdi sahibkarlara məxsus ticarət subyektlərində, 21,9 faizi isə bazar və yarmarkalarda satılmışdır. Hesabat dövründə pərakəndə ticarət şəbəkələrindən bir istehlakçı orta hesabla ayda 484,2 manatlıq və ya 2022-ci illə müqayisədə 53,5 manat çox əmtəə almışdır.

**2023-cü ildə pərakəndə ticarət dövriyyəsinin strukturu**




Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmində qida məhsulları, içkilər və tütün məmulatları 33.013,4 milyon manata bərabər olmuş və 2022-ci ilin səviyyəsini real ifadədə 2,5 faiz üstələmişdir. Pərakəndə şəbəkədə satılmış qeyri-ərzaq mallarının həcmi isə 25.984,3 milyon manat olmuşdur və 2022-ci illə müqayisədə real ifadədə 5,2 faiz artmışdır.

2023-cü ildə hər bir istehlakçı fərdi istehlak məqsədi ilə pərakəndə ticarət müəssisələrində orta hesabla ayda 270,9 manatlıq qida məhsulları, içkilər və tütün məmulatları, 213,3 manatlıq isə qeyri-ərzaq malları almışdır.

Hesabat dövründə istehlakçıların pərakəndə ticarət şəbəkələrində xərclədiyi vəsaitin 56,0 faizi ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, 14,3 faizi toxuculuq malları, geyim və ayaqqabıların, 5,2 faizi avtomobil benzini və dizel yanacağı, 4,6 faizi elektrik malları və mebelin, 2,2 faizi əczaçılıq və tibbi malların, 1,1 faizi kompüterlər, telekommunikasiya avadanlıqları, çap məhsullarının, 16,6 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.

**2023-cü ildə pərakəndə ticarət dövriyyəsinin məhsul qrupları üzrə strukturu**




**İaşə xidməti**

2023-cü ildə əhaliyə 2.041,5 milyon manatlıq iaşə xidmətləri göstərilmiş və 2022-ci illə müqayisədə real ifadədə 15,2 faiz artmışdır. Özəl sektorda ictimai iaşə dövriyyəsinin 50,6 faizi hüquqi şəxs statuslu müəssisələrin, 49,4 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti göstərən fərdi sahibkarların payına düşmüşdür. Hesabat dövrü ərzində hüquqi şəxs statuslu müəssisələrdə iaşə dövriyyəsinin həcmi 2022-ci illə müqayisədə 15,6 faiz artaraq 1.024,1 milyon manat təşkil etmişdir.

**Pullu xidmətlər**

2023-cü ildə əhaliyə göstərilən pullu xidmətlərin dəyəri 2022-ci illə müqayisədə real ifadədə 14,0 faiz artaraq 11.411,6 milyon manata çatmışdır. Hüquqi şəxslər tərəfindən əhaliyə 8.652,1 milyon manat xidmət göstərilmişdir ki, bu da ümumi xidmətlərin 75,8 faizini təşkil edir. Hesabat dövründə hər bir ölkə sakini orta hesabla 1.123,9 manat və ya 2022-ci illə müqayisədə 204,8 manat çox müxtəlif növ pullu xidmətlərdən istifadə etmişdir.